UOT 37.01.

***Xəzəngül Süleyman qızı Babayeva,***
*pedaqogika üzrə fəlsəfə doktoru.*
*Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı*

# ƏYANİLİK PRİNSİPİ TƏLİMİN BAŞLICA PRİNSİPİ KİMİ

***Хазангюль Сулейман гызы Бабаева,***
*доктор философии по педагогике,*
*Загатальский филиал Азербайджанского Государственного Экономического Университета*

# ПРИНЦИП НАГЛЯДНОСТИ – ОСНОВОПОЛАГАЮЩИЙ ПРИНЦИП ОБУЧЕНИЯ

***Khasangule Suleyman Babaeva,***
*PhD in pedagogy,*
*Zagatal Branch of the Azerbaijan State Economic University*

# PRINCIPLE OF VISIBILITY – THE BASIC PRINCIPLE OF TRAINING

**Xülasə:** Təlim prosesi mürəkkəb təzahürdür. Onu müəllimin bilikləri sadəcə məktəblilərə verməsi kimi təsəvvürə gətirmək düzgün olmazdı. Qarşıya suallar çıxır: Təlim prosesi necə qurulmalıdır? Bu zaman hansı müddəalar rəhbər tutulmalıdır?

Təlimin vəzifəsi təlim prosesinin inkişafı haqqında biliklər əsasında, onun qanunauyğunluqlarına əsaslanmaqla təlimin prinsiplərini dərsə gətirmək, proqram materialının mənimsənilməsini asanlaşdırmaqdan ibarət olmalıdır.

***Açar sözlər**: təlim, təlimin prinsipləri, əyanilik, əyanilik prinsipi, təlimin təşkili*

**Резюме:** Процесс обучения сложное явление, и нельзя его представлять как простую передачу знаний учителем школьникам, которые этими знаниями еще не обладают. Возникают вопросы: каким образом должно быть поставлено обучение? Какими положениями необходимо руководствоваться при этом?

Задача обучения состоит в том, чтобы на основе знаний об развитии учебного процесса выяснить, как на основе закономерностей его развития разрабатываются принципы обучения, которыми руководствуется учитель в своей практической работе.

***Ключевые слова**: обучение, принципы обучения, наглядность, принцип наглядности, организация обучении*

**Summary:** The learning process is a complex phenomenon, and it cannot be represented as a simple transfer of knowledge by a teacher to students who do not yet possess this knowledge. The questions arise: how should the training be delivered? What provisions need to be guided by this?

The task of learning is to find out, on the basis of knowledge about the development of the educational process, how, based on the patterns of its development, the principles of learning are developed that guide the teacher in their practical work.

***Keywords:** training, teaching principles, visibility, visibility principle, organization of training*

Məlum olduğu kimi, təlim prosesinin səmərəliliyi onun təşkili və gedişi zamanı onun müxtəlif prinsiplərindən hansı səviyyədə istifadə olunmasından çox asılıdır. Bildiyimiz kimi, məktəb təcrübəsində təlimin elmilik prinsipi, sistemlilik və ardıcıllıq prinsipi, müəllimin rəhbər rolu şəraitində şagirdlərin şüurluluq və fəallığı prinsipi, konkret və mücərrədin vəhdəti prinsipi, təlimdə müyəssərlik prinsipi, təlimin kollektiv xarakteri və şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması, nəzəriyyənin təcrübə

ilə əlaqəsi prinsipi, əyanilik prinsipi və s. Prinsiplərindən istifadə olunur.

Təlimin prinsipləri onun məqsədləri və qanunauyğunluqları əsas götürülərək müəyyənləşdirilir. Prinsiplər rəhbər müddəalar olub tədrisin və öyrənmənin gedişinə aydınlıq gətirir. Müəllimlər təlimin prinsiplərinə aydın başa düşməli və öz pedaqoji fəaliyyətlərində onlardan bəhrələnməlidirlər.

Prof. A.N. Abbasovun qənaətincə, "Təlimin prinsipləri iki qrupa bölünə bilər: 1. Təlimin seçilməsini və məzmununu müəyyən edən prinsiplər. 2. Tədris prosesinin səmərəli qurulmasını və fəaliyyətini müəyyənləşdirən prinsiplər.

Təlimin prinsiplərində təhsilin məzmununa və tədris prosesinə aid normativ tələblər, tədrisin və təlimin qanunauyğunluqları, ümumiləşdirilmiş qabaqcıl təcrübə öz əksini tapır" (1, s. 123).

Təlimin prinsipləri sırasında əyanilik prinsipinin özünəməxsus rolu vardır.

Təlimin başqa prinsiplərinə nisbətən əyanilik prinsipi daha qədim tarixə malikdir.

Azərbaycanın klassik filosofu Əbülhəsən Bəhmənyar hələ XI əsrdə biliklərə yiyələnməkdə duyğu üzvlərinin roluna diqqəti yönəldərək deyirdi: "İnsan yalnız duyğudan gələn, yaxud duyğunun təsdiqlədiyi şeyə inanır".

Fransız maarifpərvəri Fransua Rable "Qarqantua və Pantaqruel" adlı əsərində orta əsrlərin sxolastik təlim və tərbiyə sistemini tənqid edir. Bu kitabda müəllim obrazı yaradılmışdır. O, dərslərində əzbərçiliyə meyil göstərir, çalışır ki, uşaqlar onun dediklərini əzbərləsinlər Bu zaman fikir vermir ki, bilik və məlumatlar şagirdlər tərəfindən başa düşüldümü.

Əsərin qəhrəmanı Qarqantua da tədris materiallarını şüursuz olaraq öyrənir, hər hansı məsələyə aid fikrini bildirməyə qabil olmur, müstəqil fikir söyləyə bilmir. Nəticədə o, küt bir adam kimi yetişir.

Fransua Rable sxolastik təlimin mənfiliklərini, insanı şikəst etdiyini diqqət mərkəzinə gətirir. Gəldiyi qənaəti bu olur ki, belə halları aradan qaldırmaq üçün uşaqlarda təşəbbüskarlıq və müstəqilliyi, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək lazımdır.

Ata öz övladına - Qarqantuaya dərs demək üçün başqa bir müəllimi evinə dəvət edir. Təzə müəllim humanistdir, yeniliyi sevir, nəyi necə öyrətməyi yaxşı bilir, mexaniki əzbərçilik əleyhinədir, tədris materiallarının şüurlu şəkildə öyrənilməsinə üstünlük verir. O, mövzuları sistemli və ardıcıl olaraq öyrədir.

Bu müəllim yaxşı başa düşür ki, keçdiyi dərslərdə əyaniliyə diqqət yetirdikdə tədris materialı tez və asanlıqla mənimsənilir və uzun vaxt ərzində hafizədə qalır. Tez bir zamanda Qarqantua kamil bir insan kimi yetişir.

Göründüyü kimi, Fransua Rable əyaniliyə və təlimin həyatla əlaqəsinə diqqət yetirirmiş. Fəqət o zamanlar və bir müddət sonralar pedaqogika tarixində əyanilik prinsipinin adı tutulmur, nəzəri baxımdan əsaslandırılmırdı.

XVII əsrdə çex pedaqoqu Y.A. Komenski (2) təlimdə əyanilik prinsipini diqqət mərkəzinə gətirdi. Onu nəzəri cəhətdən əsaslandırdı, dərs dediyi məktəbdə bu prinsipin imkanlarından faydalandı.

Didaktikada əyaniliyin böyük rolunu görən Y.A. Komenski onu təlimdə "qızıl qayda" adlandırdı. Bu xüsusda o, yazırdı: "…mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək qoy müəllimlər üçün qızıl qayda olsun, yəni görünəni – görmə duyğusuna, iyi – iybilmə duyğusuna təqdim etməli" (2).

Komenski təlimi əşyaların və hadisələrin canlı müşahidəsindən başlamağın tərəfdarı idi. Ona görə, şeylər bədən, sözlər də paltardır, şeylər nüvə, sözlər də qabıqdır. Hər hansı bir şeyi öyrənərkən qulaq gözlə, söz əl fəaliyyəti ilə birləşməlidir.

O, deyilənləri əsas götürərək, deyirdi ki, başı nüvəsiz qabıqla doldurmağa lüzum yoxdur. Sözlər əşyalarla əlaqədə təhsilalana öyrədilməlidir.

Məşhur "Böyük didaktika" əsərində böyük çex pedaqoqu göstərirdi: "Duyğularda olmayan heç bir şey şüurda da olmadığından ağıl bütün düşüncələr üçün materialı yalnız duyğulardan alır" (2).

Təbii ki, onun qənaətləri düzgün idi: bir yox, bir neçə duyğu üzvü vasitəsi ilə mənimsənilən material, məlumat hafizədə daha uzun müddət və möhkəm qalır.

Əyani vasitələrə təhsilalanlarda obrazlı təsəvvürlərin yaradılması üçün, eyni zamanda anlayışların formalaşdırılması, mücərrəd əlaqələrin və asılılıqların dərki məqsədilə müraciət edilir. Əyanilik vasitəsilə əşya, fakt və hadisələri,

prosesləri qavrayan şagirdlər obyektiv gerçəkliyi düzgün başa düşürlər.

Y.A. Komenski təlim prosesində hissi idraka nisbətən daha çox yer verilməsini məqsədəuyğun hesab edirdi. Komenskiyə görə, əyanilik tədris materialının mənimsənilməsinin həlledici amilinə çevrilir və hissi idrak biliklərin mənbəyi kimi özünü göstərir. "Güzgünün şeyləri yaxşı əks etdirməsi üçün əvvəlcə şeylərin kifayət qədər sıx və aydın olması və duyğuların inikası sahəsində yerləşməsi lazımdır. Axı duman və duman kimi seyrək tərkibli şeylər özündən az şüa əks etdirir və güzgüdə çox zəif əks olunur; mövcud olmayan şeylər isə heç əks olunmur. Beləliklə, öyrənilmək üçün gənclərə təqdim olunan şeylər isə duyğulara və xəyala yaxşı təsir edən sıx həqiqi faydalı şeylər olsun, qoy şeylərin kölgələri olmasın. Şeylərin özü isə bizdə yalnız o zaman təsir oyadacaqdır ki, onlar duyğu törədəcək yaxın məsafəyə gətirilsinlər" (2).

Ona görə də biz əyaniliyə nə qədər çox yer versək (lakin təbii ki, həddi aşmamaq şərtilə), hissi idraka bir o qədər çox əsaslanmalı oluruq. Nəticədə ağlın inkişafı yetərli olur.

Prof. A.N. Abbasovun yazdığı kimi, "Əyanilik, müxtəlif vəziyyətlərdə şagirdlərdə təlim əməyinə müsbət münasibət yaradır, onların idraki maraqlarını stimullaşdırır, obrazların hərtərəfli formalaşdırılmasına, biliklərə möhkəm yiyələnməyə, dərsin hər dəqiqəsindən səmərəli istifadə olunmasına və vaxta qənaət edilməsinə, biliklərin həyatla, ölkəmizdə aparılan dinc quruculuq işlərilə əlaqələndirilməsinə şərait yaradır" (1, s. 124).

Əyaniliyin tarixinə gəldikdə, demək lazımdır ki, bu prinsipin pedaqogika elmində özünə yer almasında alman pedaqoqu Adolf Disterveqin xidmətləri də mühümdür.

Adolf Disterveq əyaniliyi olduqca böyük əhəmiyyətli didaktik prinsip kimi dəyərləndirirdi. O, konkret təfəkkürə yiyələnmiş şagirdlə təlimi nümunələrə, real əşyalara, faktlara əsaslanmaqla, konkret təsəvvürlər oyatmaqla başlamağı məqsədəuyğun hesab edirdi.

Əyanilik prinsipinə böyük rus pedaqoqu və psixoloqu K.D. Uşinski xüsusilə mühüm dəyər vermişdir. O, əyaniliyin rolunu uşağın konkret fikirləşməsi faktına əsasən qiymətləndirirdi. K.D. Uşinskiyə görə, "Uşaq formalarla, boyalarla, səslərlə və ümumiyyətlə, duyğularla fikirləşir və uşağı başqc düşünməyə vadar etmək istəyən şəxs onun təbiətini əbəs yerə və zərərinə olaraq zorlamış olar. Beləliklə, ibtidai təlimi formalarda, boyalarda, səslərdə ifadə etməklə, bir sözlə, onu uşağın mümkün qədər çoxlu duyğuları üçün əlverişli bir şəklə salmaqla, biz eyni zamanda təlimi uşağın anlaq səviyyəsinə uyğunlaşdırır və özümüz də uşağın təfəkkür aləminə daxil oluruq".

K.D. Uşinski də əyanilikdən istifadə edərkən hiss üzvünün işə qoşulmasını məsləhət görürdü. Fikir verək: "Hörümçəyin ən incə tellər üzrə insanı heyrətə gətirəcək dərəcədə düzgün yüyürməsinin səbəbi odur ki, o, bir caynağı ilə deyil, çoxlu caynağı ilə tellərdən yapışır, biri qopursa, o birilər onu saxlayır".

Böyük rus pedaqoqu və psixoloqu öz-özünə "Əyani təlim nədir" sualını vermiş və həmin suala belə münasibət bildirmişdi: "Bu, mücərrəd təsəvvürlər və sözlər üzərində deyil, uşaq tərəfindən bilavasitə qavranan konkret obrazlar üzərində qurulan bir təlimdir: bu obrazlar müəllimin rəhbərliyi ilə təlim zamanı da qavranıla bilər, qabaqcadan uşağın müstəqil müşahidəsi vasitəsilə də qavranılmış ola bilər, belə ki, müəllim bu təlimi uşağın ruhunda mövcud olan hazır obrazlar üzərində qurur".

K.D. Uşinski lazım bilindikdə əyanilikdən faydalanmağı məsləhət görürdü. Diqqət yetirək: "Uşağın təbiəti aydın bir surətdə əyanilik tələb edir. Uşağa, ona məlum olmayan beş kəlmə söz öyrətməyə çalışın, o, bunların üzərində bir müddət və əbəs yerə əzab çəkəcəkdir. Lakin bu cür 20 kəlməni şəkillərlə əlaqələndirin və uşaq bunları çox asanlıqla mənimsəyəcəkdir. Siz uşağa sadə bir fikri izah edirsiniz, o sizi anlamır; həmin uşağa mürəkkəb bir şəkli izah edin, o sizi çox tez anlayır. Eyni qabiliyyətə malik olan iki uşağa eyni hadisəni iki müxtəlif yolla nağıl etməyi təcrübə edin: birinə şəkil üzrə, o birinə isə şəkilsiz nağıl edin – o zaman uşaq üçün şəklin bütün əhəmiyyətini qiymətləndirəcəksiniz".

Harada nəşr olunmasından asılı olmayaraq (istər respublikamızda, istərsə də xarici ölkələrdə, o cümlədən Rusiyada) bütün pedaqogika dərsliklərində, pedaqoji ədəbiyyatda təlimin əyanilik prinsipinə münasibət bildirilir, onun faydası və tətbiqi imkanları barədə qiymətli fikirlər söylənir. Hətta bu prinsipin mahiyyətini, məqsəd və vəzifələrini, tətbiqi imkanlarını və tətbiqinin səmərəli yollarını özündə birləşdirən

tədqiqat əsərləri də vardır, əyanilik prinsipinə həsr olunmuş dissertasiya əsəri də yazılmışdır. Prof. A.N. Abbasovun elmi rəhbərliyi ilə L.A. Kərimova pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Əyanilik kiçik yaşlı məktəblilərdə təlimə marağı artıran prinsip kimi" mövzusunda dissertasiya müdafiə etmişdir. Bu dissertasiya əsərində aşağıdakı məsələlər diqqət mərkəzində dayanmışdır: 1. Əyanilik prinsipinin nəzəri əsasları və ibtidai siniflərdə ondan istifadənin zəruriliyi: 1.1. Təlimdə əyanilik prinsipi ibtidai sinif şagirdlərinin təlimi sistemində mühüm didaktik prinsiplərdən biri kimi. 1.2. Təlimdə əyaniliyin pedaqoji əsasları. 1.3. Təlimdə əyaniliyin psixoloji əsasları. 1.4. Təlimdə əyaniliyin fizioloji əsasları. 1.5. Azərbaycan pedaqoqlarının pedaqoji sistemində əyanilik prinsipi. 1.6. Əyani vasitələrin təsnifatı.

2. Təlimdə əyaniliyin tətbiqinin səmərəli yolları: 2.1. İbtidai siniflərdə təlimin əyanilik prinsipindən istifadənin imkanları. 2.2. İbtidai siniflərdə yeni informasiya texnologiyalarından istifadə. 2.3. Kiçik yaşlı məktəblilərdə təlimə marağın yaradılması üzrə müəllim təcrübəsi (əyanilik tətbiq etməklə). 2.4. Pedaqoji eksperimentin təşkili, aparılması və nəticələri.

Deyilənlər göstərir ki:

– əyanilik prinsipinin təlim prosesinə tətbiqi nəticəsində təhsilalanlar biliklərə asanlıqla yiyələnə bilirlər;

– əyanilik prinsipi təlimdə formalizmin aradan qaldırılmasını təmin edir, əşya və hadisələrlə bağlı təsəvvürlərin aydın olmasına və konkretləşdirilməsinə şərait yaradır;

– əyanilik prinsipi məktəbli oğlan və qızlarda nitqin və təfəkkürün inkişafına kömək edir;

– əyaniliyin tətbiqi ilə proqram materialı, dərslərdə alınan biliklər xeyli müddət hafizədə qalır;

– təlim prosesində əyaniliyin imkanlarından faydalanmaq şagirdləri fəallaşdırır, onların müstəqil düşünmə və fikir yürütmə qabiliyyətlərinin inkişafına kömək göstərir, təhsilalanlarda təlimə maraq yaradır, təlimin keyfiyyətini artırır.

**Problemin aktuallığı.** Təlimin səmərəli təşkilində əyanilik prinsipinin rolu böyükdür.

**Problemin yeniliyi.** Təlimin səmərəli təşkilində əyanilik prinsipinin rolu diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə tədqiqatlar aparan gənc tədqiqatçılar, doktorant və dissertantlar, müəllimlər üçün faydalıdır.

## Ədəbiyyat:

1. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2015.

2. Y.A. Komenski. Böyük didaktika. / Elmi redaktoru, nəşrə hazırlayan və ön sözün müəllifi prof. F.A. Rüstəmov. Bakı: Elm və təhsil, 2012.

3. L.A. Kərimova. Əyanilik kiçik yaşlı məktəblilərdə təlimə marağı artıran prinsip kimi: Ped.ü.fəls.dok. ...dis. Bakı, 2015.

**E-mail:** xezengul68@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**, *ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub**: 17.12.2018